## VƏZİFƏ TƏLİMATI AKB1200

| | |
|---|---|
| **Tutduğu vəzifə** | Direktor |
| **struktur** | Risklərin idarə edilməsi Departamenti |
| **Kimin tərəfindən əvəz edilir** | Risklərin idarə edilməsi Departamentinin mütəxəssisi |
| **Kimə hesabat verir** | İdarə Heyətinin Sədri |
| **Bilavasitə tabeçi-liyində olanlar** | • Risklərin idarə edilməsi departamentinin mütəxəssisi |
| **Vəzifələri** | • Bankın fəaliyyəti ilə bağlı hər cür risklərin müəyyən olunması, sığortalanması standartlarını, prinsip və qaydalarını işləyib hazırlayır.<br>• Kredit, investisiya, zəmanətlər, habelə maliyyə bazarlarında aparılan əməliyyatlar üzrə risklərin düzgün qiymətləndirilməsi və sığortalanmasına nəzarət edir.<br>• Bankın fəaliyyətində riskli sahələrin sığortalanması prinsiplərinə riayət olunmasına gündəlik nəzarəti həyata keçirir.<br>• Risklərin idarə edilməsi üzrə təsdiq olunmuş qaydalarla struktur bölmələrini tanış edir və onlar üzrə bankdaxili seminarlar keçirilməsini təşkil edir.<br>• Mütəmadi olaraq, bankın bütün fəaliyyəti üzrə risklilik göstəricilərini təhlil edir.<br>• Bankın struktur bölmələrinə risklərin idarə edilməsi üzrə metodiki məsləhətlər verir.<br>• Risklərin idarə edilməsinə dair Aktiv və Passivlərin idarə edilməsi Komitəsinə və Kredit Komitəsinə təkliflər təqdim edir.<br>• İşlənilmiş bankdaxili proseduralarda risklərin düzgün müəyyən olunması, qiymətləndirilməsi və sığortalanması prinsiplərinə riayət olunması nöqteyi nəzərdən rəy verir.<br>• Tabeçiliyində olan işçilərin işini təşkil edir.<br>• Departamentin əsasnaməsi və bankdaxili qaydalardan irəli gələn bütün vəzifələrin icrasını təmin edir.<br>• İdarə Heyəti Sədrinin ona həvalə etdiyi digər vəzifələri həyata keçirir.<br>• Bankın likvidlik və faiz siyasəti barədə təkliflər toplusunu hazırlayır və onu Aktiv və Passivlərin idarə edilməsi Komitəsinin təsdiqinə verir.<br>• Bankın likvidlik və faiz siyasətinin icrasına nəzarət edir.<br>• Ölkə və bank limitləri barədə təkliflər hazırlayır, Aktiv və Passivlərin idarə edilməsi Komitəsində təsdiq olunduqdan sonra onlara riayət olunmasına nəzarəti həyata keçirir.<br>• Resursların limitlərini, qiymətlərini, onların cəlbetmə mənbələrini müəyyənləşdirilməsində iştirak edir və onların icrasına nəzarəti həyata keçirir.<br>• MŞ-nın, İH-nin, aktiv/passivlərin idarə edilməsi komitəsinin, Kredit Komitəsinin və Milli Bankın risklərin idarə edilməsi |

| | |
|---|---|
| | barəsindəki normativ sənədlərinin tələblərini yerinə yetirir.<br>• Aktiv\passivlərin idarə edilməsi və Kredit komitələrinin iclaslarında iştirak edir.<br>• Risklərin idarə edilməsi üzrə təsdiq olunmuş qaydalarla struktur bölmələri tanış edir və bankdaxili seminarlar keçirir.<br>• Bankın fəaliyyətində ortaya çıxa biləcək riskləri daima təhlil edir və onların sığortalanması yolları üzrə müştəri xidməti və kredit Departamentlərinə təlimatlar verir.<br>• Risklərin idarə edilməsi işində bankın digər struktur bölmələrinə metodiki köməkliklər edir.<br>• aktiv əməliyyatlar aparılmazdan əvvəl risklərin düzgün qiymətləndirilməsi və sığortalanmasına nəzarət edir.<br>• Bilavasitə tabeçiliyində olan işçilərin vəzifə təlimatlarını müəyyənləşdirib, təsdiq edir. |
| **Səlahiyyətləri** | • Bankın fəaliyyətində ortaya çıxa biləcək risklərin sığortalanması üzrə Müştəri xidməti və Kredit Deparamentlərinə təlimatlar verir.<br>• Kredit, zəmanət və investisiyalar sahəsində risklərin düzgün qiymətləndirilməməsi hallarında əməliyyatın aparılmaması üçün qərar qəbul edir.<br>• Bankdaxili qaydalarla ona verilmiş səlahiyyətlər daxilində digər qərarlar qəbul edir. |
| **Vəzifəyə olan tələblər** | • iqtisadi təhsil və ya xüsusi təlimin olması,<br>• risklərin idarə edilməsi və maliyyə menecmenti sahəsində təcrübə,<br>• ehtiyatlılıq qabiliyyəti,<br>• yüksək dərəcədə analitiklik qabiliyyət,<br>• ms office, və xüsusiyyətlə ms excel, proqramında sənədlərin hazırlamasının ümumi biliyi |
| **Digər şərtlər** | Öz fəaliyyəti ilə bağlı birbaşa İdarə Heyyəti Sədri ilə işləyir, onun və ya onu əvəz edən şəxsin məlumatı və icazəsi olmadan Departamentin məsələləri ilə bağlı yuxarı instansiya rəhbərliyə müraciətinə yol verilmir. |